Geosiyasət və iqtisadiyyatın kəsişdiyi platforma

Davos Dünya İqtisadi Forumu yanvarın 20-də yenidən öz işinə başlayıb. 1971-ci ildə İsveçrədə professor Klaus Şvab tərəfindən əsası qoyulan bu Forum qısa zamanda qlobal dialoq üçün əvəzsiz bir mərkəzə çevrildi. Hər il İsveçrədə toplaşan dünya liderləri, nüfuzlu təşkilatlar və ekspertlər qlobal problemlərin yeni həll yollarını axtarır, gələcəyin yol xəritəsini cızırlar.

Yanvarın 24-nə qədər davam edəcək tədbir 130-dan çox ölkənin 350 hökumət nümayəndəsini, 60-dan çox dövlət və hökumət başçısını, eləcə də biznes, vətəndaş cəmiyyəti, media, elm və incəsənət nümayəndələrini bir araya gətirib. Ümumilikdə 3 min nəfərdən artıq iştirakçının qatıldığı Forum beş gün ərzində dünya iqtisadiyyatının ən aktual məsələlərinə toxunacaq. Davos Forumunda bu il də qlobal iqtisadiyyatın yeni artım mənbələrini araşdırmaq, geoiqtisadi və texnoloji dəyişikliklər fonunda biznes strategiyalarını uyğunlaşdırmaq, eləcə də insan kapitalına və dayanıqlı inkişafı təşviq edən iş yerlərinin yaradılmasına dair müzakirələr aparılacaq. Həmçinin ekoloji təmiz texnologiyaların tətbiqi, iqlim dəyişmələri ilə mübarizə, süni intellektin tənzimlənməsi və beynəlxalq əməkdaşlığın yeni yollarının araşdırılması tədbirin diqqət mərkəzindədir.

Azərbaycan bu qlobal iqtisadi platformada fəallığı ilə seçilir. Prezident İlham Əliyevin Forumda mütəmadi iştirakı ölkəmizin qlobal iqtisadi dialoqun öncül iştirakçılarından biri olduğunu təsdiqləyir. Azərbaycan lideri Forum çərçivəsində enerji təhlükəsizliyi, bərpaolunan enerji mənbələrinin inkişafı, regional əməkdaşlıq və texnologiya transferi kimi mövzularda mühüm təşəbbüslərlə çıxış edir. Bu, ölkəmizin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirir. Davos Forumu yalnız qlobal iqtisadiyyatın deyil, həm də siyasi və sosial məsələlərin müzakirə meydanıdır. İqlim dəyişmələri, enerji təhlükəsizliyi, bərabərsizlik və texnoloji irəliləyişlər kimi mövzular burada geniş şəkildə araşdırılır. Tədbir həm də dünya liderlərinə və biznes sahibkarlarına əməkdaşlıq imkanlarını genişləndirmək üçün unikal bir platforma təqdim edir. Azərbaycan kimi ölkələrə Davos yalnız öz iqtisadi və diplomatik mövqeyini gücləndirmək, qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə töhfə vermək üçün əlverişli fürsət yaradır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişaf modeli, uğurlu strateji layihələri və gələcək əməkdaşlıq perspektivləri Davos tribunasından dünyaya çatdırılır. Ölkə başçısı İlham Əliyev hər il Davosda müxtəlif dövlətlərin liderləri, dünya miqyasında nüfuzlu şirkətlərin rəhbərləri və tanınmış iş adamları ilə mühüm görüşlər keçirir. Bu görüşlər çərçivəsində Azərbaycanın investisiya imkanları, enerji təhlükəsizliyi sahəsindəki strateji mövqeyi və bərpaolunan enerji mənbələrinə keçid istiqamətindəki təşəbbüsləri müzakirə olunur. Bununla yanaşı, dövlət başçısı beynəlxalq media nümayəndələrinə ölkəmizin qlobal proseslərdəki rolu haqqında aydın və güclü mesajlar verir. Hazırda Prezident İlham Əliyev Davos şəhərindədir və Dünya İqtisadi Forumu çərçivəsində bir sıra mühüm görüşlər keçirir. Əminliklə demək olar ki, bu il də Azərbaycan lideri Forumda ölkəmizin strateji mövqeyini qlobal ictimaiyyətə təqdim edəcək. Həmçinin dünya iqtisadiyyatının və siyasətinin gündəmində olan əsas məsələlərin həllinə dair öz tövsiyələrini və təcrübəsini paylaşacaq.

Bütün dünyanın gözü Davosa yönəlib. Mövcud qlobal geosiyasi gərginliklər fonunda bu tədbir sabitlik və inkişaf üçün yeni mexanizmlərin formalaşmasında əhəmiyyətli rol oynayır. Bu kontekstdə Azərbaycanın həm regional, həm də qlobal səviyyədə bir çox problemin həllinə töhfə vermək potensialını nümayiş etdirir. Bu il də Azərbaycan qlobal çağırışlara konstruktiv yanaşması ilə fərqlənəcək və beynəlxalq əməkdaşlığa öz qatqısını verəcək. Yanvarın 21-də Prezident İlham Əliyev Davosda "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri və Baş icraçı direktoru, İsrail Prezidenti, Almaniya Kansleri, İraq Kürdüstan Regionunun Baş naziri, "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru, "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru, Latviya Prezidenti və digər rəsmilərlə görüşüb.

1995-ci ilin 27-31 yanvar tarixlərində Heydər Əliyev ilk dəfə Davos Forumunda iştirak edərək Azərbaycanın qlobal səviyyədə təqdimatını yüksək səviyyədə həyata keçirdi. Bu addım ölkəmizin dünya iqtisadi sistemində mövqeyini gücləndirmək istiqamətində görülmüş mühüm işlərdən biri kimi qiymətləndirilir. Qeyd edək ki, Davos Dünya İqtisadi Forumunun tarixində bir dəfə - 2002-ci ildə, ənənəvi İsveçrə şəhəri əvəzinə Nyu-Yorkda keçirilməsi qlobal birliyə və beynəlxalq həmrəyliyə çağırış idi. Bu addım 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən dəhşətli terror hadisəsinə qarşı dünya ictimaiyyətinin birgə etirazını ifadə edirdi. Forum çərçivəsində 106 ölkədən 3 min nümayəndə bir araya gələrək, terrorizmə qarşı mübarizədə həmrəy olduqlarını nümayiş etdirdilər. 2002-ci ildəki Davos Forumunda Azərbaycan Prezidenti Heydər Əliyev də iştirak edirdi. Ulu öndər çıxışında 11 sentyabr terror hadisələrinin insanlığa qarşı törədilmiş ağır cinayət olduğunu vurğuladı. Heydər Əliyev bu hücumun yalnız ABŞ-a deyil, bütün sivil dünyaya qarşı təhlükə olduğunu bildirərək beynəlxalq ictimaiyyəti terrorizmə qarşı birləşməyə çağırdı. Dövlət başçısının çıxışında diqqət çəkən əsas məqamlardan biri terrorizmin əsas qaynaqlarından biri kimi separatizmin vurğulanması idi. Heydər Əliyev bu məsələni Azərbaycanın üzləşdiyi real problemlər üzərindən izah etdi. Ümummilli lider Qarabağ münaqişəsini misal gətirərək separatizmin təkcə regional sabitlik üçün deyil, eyni zamanda beynəlxalq təhlükəsizlik üçün də ciddi təhdid olduğunu qeyd etdi.

2007-ci ildən başlayaraq Prezident İlham Əliyev Davos Forumunda mütəmadi olaraq iştirak edir. Azərbaycanın Cənubi Qafqazda lider mövqeyə malik olması, eləcə də sosial-iqtisadi, siyasi, enerji və nəqliyyat sahələrində əldə etdiyi uğurlar Davos tribunasından dünya ictimaiyyətinə təqdim edilir. Hər il bu nailiyyətlərə qlobal maraq artır və Azərbaycan dünya iqtisadiyyatının əsas aktorları arasında öz yerini möhkəmləndirir. Davos Forumunda Azərbaycanın fəaliyyəti təkcə iştirakla məhdudlaşmır, eyni zamanda burada fəal mövqe tutur. Prezident İlham Əliyev müxtəlif mövzularda panellərə qatılaraq çıxışlar edir, qlobal məsələlərlə bağlı suallara cavab verir və Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə edir. Bu uğurların nəticəsi olaraq 2013-cü ilin 12 aprelində Dünya İqtisadi Forumunun tədbirlərindən biri Bakıda keçirildi. Azərbaycan qlobal iqtisadi dialoqun mərkəzlərindən birinə çevrilərək dünyanın tanınmış iqtisadçılarını, ekspertlərini və dövlət nümayəndələrini bir araya gətirdi. Tədbirdə dünya iqtisadiyyatını narahat edən əsas problemlər müzakirə edildi, rəsmi Bakının qlobal iqtisadiyyata verdiyi töhfə və regional liderliyi bir daha təsdiq olundu.

Nəzrin ELDARQIZI,
"Respublika".